**UOT 330:34**

# İNKİŞAF ETMİŞ İQTİSADİ SİSTEMLƏRDƏ İNSAN KAPİTALI

**Tale HÜSEYNLİ***

Məqalə redaksiyaya daxil olmuşdur: 15 sentyabr 2024; çapa qəbul edilmişdir: 30 sentyabr 2024; online-da çap edilmişdir: 11 dekabr 2024.

Received: 15th of September, 2024; accepted: 30th of September, 2024; published online: 11th of December, 2024.

**Açar sözlər:** *reytinq, insan kapitalı, innovativ inkişaf, iqtisadi islahatlar*

## Giriş

Bu gün yer kürəsinin vahid iqtisadi bazara dönməsi dövrünü yaşayırıq. Öz növbəsində isə bu çevrilmə mərhələsi “sərhədsiz dünya” çağdaş konsepsiyasını inkişaf etdirərək, ümumilikdə ölkələrin güc birliklərini tələb edir. Faktiki olaraq qeyd olunan çağırışlara cavab kimi, 2015-ci ildə Beynəlxalq Millətlər Təşkilatına üzv olan dövlətlər 2030-cu ilə kimi Dayanıqlı İnkişaf üzrə qlobal Gündəliyi qəbul etmişlər. Həmin gündəliyin əsas məqsədi isə milli strategiyaları sosial, iqtisadi və ekoloji prinsiplər üçlüyünün təmin olunmasını tələb edən bütün bəşəriyyətin taleyinə dair universal baxış bucağına uyğunlaşdırmaqdan ibarətdir.

Həmin çağırışlar bizə yüksək keyfiyyətlərə nail olan insan kapitalı olmadan hər hansısa bir davamlı iqtisadi inkişaf məqsədini effektiv şəkildə yerinə yetirməyin qeyri-mümkün olduğunu göstərir. Nəticədə isə təhsilimizə olan tələb sürətli şəkildə inkişaf edir və bunun da əsas səbəbi iqtisadiyyat və iqlimdəki qlobal problemlərə insan kapitalının, çağdaş həyat tərzinin, mentalitetinin sürətli transformasiyasını tələb edir. Qeyd edilmiş dəyişikliklərin həyata keçirilməsi üçün davamlı olaraq, cəmiyyətimizin inkişafını təmin edəcək çağdaş praktiki bacarıqlar və davranış münasibətləri əsas amillərdən biridir.

## 1. Davamlı iqtisadi inkişafın əsas amili – insan kapitalı

Son vaxtlarda bəzi inkişaf etmiş və inkişafda olan ölkələr iqtisadi inkişafın prioritetlərini müəyyən etmişlər. Hər bir ölkədə iqtisadiyyatın davamlı inkişafına nail olmaq üçün ilk öncə milli iqtisadi inkişaf strategiyasının konseptual əsaslarının hazırlanmasına və praktiki olaraq, həyata keçirilməsinə nail olmaq vacib amildir. Hazırda dövlətin əsas qayğılarından biri ölkənin bilik iqtisadiyyatını, iqtisadi təfəkkürünü və cəmiyyətini inkişaf etdirmək üçün sosial-iqtisadi və ekoloji problemlərə yaradıcı həllər tapmaqdır. Təsadüfi deyil ki, Azərbaycan Respublikası Prezidentinin 2 fevral 2021-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan 2030: Sosial-iqtisadi inkişafın Milli Prioritetləri”ndə sosial sahədə həyata keçirilməsi nəzərdə tutulan beş Milli Prioritetdən üçüncüsü Ölkənin yaxın onillikdə iqtisadi inkişafı rəqabətqabiliyyətli insan kapitalıdır və müasir innovasiya məkanına nail olmaqdır. Sənədin əsas məqsədi insan kapitalının rəqabət qabiliyyətinin artırılması, bazar və dövlət mexanizminin tətbiqində innovativ investisiyaların fəallığının artırılmasıdır. Ulu öndər Heydər Əliyevin layiqli davamçısı Azərbaycan Respublikasının

* *doktorant, Bakı Avrasiya Universiteti*
*e-mail:* talehuseynli15@gmail.com

**https://doi.org/10.30546/25194011.2024.13.5.0184**

Prezidenti İlham Əliyev tərəfindən həyata keçirilən iqtisadi inkişaf siyasətinin əsas məqsədi ölkədə rəqabətqabiliyyətli insan kapitalının, təhsilin, səhiyyənin, müasir innovasiya məkanının reallaşdırılmasından ibarətdir.

İnsan kapitalı dedikdə, insanın özünü cəmiyyətdə tam dərk etməsi və cəmiyyətin yaratdığı imkanlardan bəhrələnmək üçün malik olduğu bilik, bacarıq, peşəkarlıq və əlaqələrin məcmusu başa düşülür. İlk dəfə Teodor Şults tərəfindən istifadə edilən bu termin daha sonra onun davamçısı olan Heri Bekker tərəfindən işlənib hazırlanmışdır. İnsan kapitalı termini canlıya sərf edilmiş investisiya kimi anlaşılırdı. Daha sonra bu termin genişləndirilir, belə ki, insanın əlaqəli istehlak xərcləri, eləcə də onların təcrübəsi, təhsili və tibbi xərcləri daxildir.

Azərbaycanda dövlət siyasətinin əsasını vətəndaş komponenti, əhalinin yüksək rifah səviyyəsi və layiqli həyat səviyyəsi təşkil edir. Əmək bazarının tələb edəcəyi bilik və bacarıqları, rəqabətqabiliyyətli insan kapitalını və ən müasir texnologiyalar əsasında qurulmuş iqtisadiyyatı yaratmaqla dövlət müasir dövrdə sosial rifah səviyyəsini yüksəltməyə çalışır. Öncədən də qeyd edildiyi kimi, Azərbaycan dünyanın artan rəqabət qabiliyyətini nəzərə alaraq, nəticə verəcək rifaha nail olmaq üçün insan kapitalının yaradılmasını əsas prioritet kimi qarşısına qoymuşdur. Bununla bağlı olaraq da, ölkəmizdə iqtisadiyyatın və texnologiyanın inkişafı üçün əlverişli infrastrukturun gücləndirilməsi istiqamətində intensiv tədbirlər həyata keçirilir.

Bundan əlavə, insan kapitalının inkişafı, kadr potensialının optimallaşdırılması və idarəetmə sektorunda səmərəliliyin artırılması və irəliləyiş yolu ilə ixtisaslı işçilərin müəyyən edilməsi məqsədi ilə yeni təşəbbüslər həyata keçirilir.

İqtisadiyyatın inkişafı ilə yanaşı, bu sahədə qlobal irəliləyişlər iqtisadçıların araşdırmasında xüsusi yer tutur. Cəmiyyətin iqtisadi qüdrətini onun rəqabət qabiliyyətini qiymətləndirmək yolu ilə müəyyən etmək olar. İnnovasiya rəqabət qabiliyyətini artırmağın ən təsirli yoludur. Bu məsələ, innovasiyanın hasilatını artıra biləcəyi fikri ilə müqayisə edilə bilər. Elm və texnologiyada innovasiyaların tətbiqi və ya yeni konsepsiyaların yaradılması yüksək gəlirlər, məşğulluq probleminin həlli və ümumilikdə iqtisadi şəraitin yaxşılaşması ilə nəticələnir. Ölkələrin sərvətinə və iqtisadi inkişafına innovasiya müsbət təsir göstərir. Bu, yeni texnologiyanın tətbiqi, elmi və texnoloji yeniliklərin yüksək dərəcədə tətbiqi və iqtisadi inkişafın məqsəd kimi qoyulması ilə birbaşa əlaqələndirilir.

Dövlət səviyyəsində Azərbaycan da digər xalqlar kimi innovasiya siyasətində səmərəliliyi üstün tutmalıdır. Dövlət siyasətinin əsas komponenti olan sosial-iqtisadi sahədə innovasiya siyasəti elm və texnologiya sahəsində hakimiyyət orqanları tərəfindən həyata keçirilən tədbirlərin məqsəd və xarakterini müəyyən edir. Siyasətə əsaslanan, innovativ iqtisadiyyatın yaradılması xalqımızın səylərinin əsas istiqamətlərindən biridir. Azərbaycan Respublikası Prezidentinin 6 dekabr 2016-cı il tarixli "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında" Fərmanında strateji sənədlərdə yeniliklərə xüsusi önəm verilir [2].

## 2. Qlobal innovasiya indeksi üzrə qiymətləndirmə

Professor Soumitra Dutta Qlobal İnnovasiya İndeksi layihəsinə 2007-ci ildə İNSEAD-da işləyərkən başlamışdır. 2011-ci ildə ÜƏMT-nin QİI ilə işləməyə başladığı, 2012-ci ildə isə QİI-nin birgə nəşrinin başlanması ilə nəticələndi. 2013-cü ildə Kornell Universiteti və Bruno Lanvin İNSEAD-da birgə nəşriyyatçılar qoşulmuşlar. 2020-ci ilə qədər Kornell Universiteti, INSEAD və ÜƏMT birgə QİI nəşr etdi. 2021-ci ildən etibarən ÜƏMT Qİ Məsləhət Şurası, Portulance İnstitutu və bir sıra biznes və akademik şəbəkə tərəfdaşları ilə birlikdə QİI-ni dərc edəcəklər.

Alıcılıq qabiliyyəti paritetinə gəlincə, 2021-ci il ÜDM modelinə 132 ölkə daxildir ki, bu da dünya əhalisinin 94,4%-ni və qlobal ÜDM-in 99,0%-ni təşkil edir. İndeks iki

hissəyə bölünür: ixtira amillərinin alt indeksi (innovasiya girişi) və innovasiyanın hərtərəfli mənzərəsini təmin etmək üçün innovativ nəticələrin alt indeksi (innovasiya çıxışı). GPI-də yeddi fərqli komponent var. Onlardan ikisi ixtiraçılıq nəticələrinin alt indeksinin, beşi isə innovasiya amillərinin alt indeksinin bir hissəsidir. 81 parametrin qiymətləndirilməsi ümumi İQİ-nin əsasını təşkil edir. Onlardan 3-ü sorğu nəticəsində əldə edilmiş məlumatlar, 15-i mürəkkəb, 63-ü isə ilkin göstəricilərdir.

İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD) QİI-nin innovasiyanın geniş tərifinin əsasını təşkil edən Oslo Təlimatlarını hazırladı. İnnovasiya indekslə aşağıdakı kimi müəyyən edilir:

*İnnovasiyalar potensial müştərilərə (məhsullara) təqdim edilən və ya bölmə (proses) tərəfindən həyata keçirilən və bölmənin əvvəlki təkliflərindən çox fərqli olan hər hansı yeni və ya təkmil maddələr və ya proseslərdir (və ya hər ikisi)* [3].

Dünya ölkələrinin innovasiya sahəsində olan potensialının ölçülməsi üçün əldə olunan indikatorlara istehlakçı tədqiqatları, elmi potensial, yaradıcı sahələrin inkişafı və sairə aid ola bilər. Bu indeks, hər hansısa bir ölkənin iqtisadi inkişaf səviyyəsini ölçməklə bərabər, bu sahədə olan zəif və güclü tərəfləri də müəyyən edir.

İnnovasiya amilinin alt indeksi (innovation input) və innovasiya məhsulunun nəticələri alt indeksi (innovation output) indeksi təşkil edən iki fərqli alt indeksdir ki, bu da ölkələrdə innovasiyanın cari səviyyəsini tam şəkildə aydınlaşdırmaq üçündür. Ümumi olaraq da, Qlobal İnnovasiya İndeksində öz tərkibində 7 elementi birləşdirir. Bu elementlərdən 5-i (İnsan kapitalı, bazar inkişafı, infrastruktur, institutlar, biznes inkişafı), innovasiyanın alt indeksinə, 2-si isə (kreativ nəticələr, elmi-texnoloji yeniliklər) digər alt indeksə aiddir. 132 ölkəni araşdıran 2023-cü il hesabatında bildirilir ki, hazırda hər bir ölkənin innovasiya potensialı və inkişaf səviyyəsi qiymətləndirilərkən təxminən 82 element nəzərə alınır.

*Cədvəl 1.*

***Bəzi ölkələrinin Qlobal İnnovasiya İndeksi üzrə reytinq göstəriciləri***

| Ölkələr | QİI | İnnovasiya amilləri | İnnovasiya nəticələri |
|---|---|---|---|
| **Azərbaycan** | 89 | 76 | 104 |
| **Qazaxıstan** | 81 | 68 | 87 |
| **Rusiya** | 51 | 58 | 53 |
| **Latviya** | 37 | 38 | 39 |
| **Estoniya** | 16 | 14 | 16 |

**Mənbə**: Qeyd olunan İnnovasiya indeksi 2023-cü il üzrə hesabat əsasında tərtib olunmuşdur.

Azərbaycanın və digər ölkələrinin reytinqləri *Cədvəl 1*-də göstərildiyi kimi 2023-cü ildən əvvəlki iki ilə dəyişib. İllik Qlobal İnnovasiya İndeksi reytinqinin müqayisəsinə indeksi təşkil edən göstəricilərə edilən dəyişikliklər təsir göstərir [5].

Azərbaycanın da daxil olduğu Qlobal İnnovasiya İndeksi sorğusunun 2023-cü il buraxılışına əsasən, bu ilin ən innovativ iqtisadiyyatı İsveçrə, ondan sonra İsveç, ABŞ, Böyük Britaniya və Sinqapurdur.

*Cədvəl 2.*

***İllər üzrə Azərbaycanın Qlobal İnnovasiya İndeksində sıralaması***
*(2020-2023)*

| İllər | QİI sıralaması | İnnovasiya amilləri | İnnovasiya məhsulunun nəticələri |
|---|---|---|---|
| **2020** | 82 | 76 | 86 |
| **2021** | 80 | 74 | 91 |
| **2022** | 93 | 79 | 110 |
| **2023** | 89 | 76 | 104 |

Yuxarıda qeyd olunan cədvəldə Azərbaycanın son 4 il üzrə reytinqləri qeyd olunmuşdur. Məlumatların mövcudluğu və Qlobal İnnovasiya İndeksi model çərçivəsindəki dəyişikliklər Qlobal İnnovasiya İndeksi reytinqlərinin illik müqayisəsinə təsir göstərir. Azərbaycanın innovasiya amili, cədvəldən də göründüyü kimi, innovasiya məhsulunun nəticələrindən çoxdur. Bu il Azərbaycan innovasiya strukturuna nəzərən 76-cı yerdədir. Bu da göründüyü kimi, keçən ilə nəzərən 3 pillə irəlilədiyimizi görə bilərik.

## 3. Qlobal İnnovasiyalar indeksi və Azərbaycan

Ən yaxşı beynəlxalq reytinq agentliklərinin ölkənin iqtisadi tərəqqi göstəricilərini necə təsvir etmələri çox vacibdir. Bu hesabatlar üçüncü tərəf nöqteyi-nəzərindən istənilən ölkə haqqında sosial-iqtisadi məlumatlara baxmaq imkanı verir. Buna görə də, müstəqil vəziyyətdə həmin reytinq göstəricilərinin hesablanması üçün istifadə olunan texnologiya xüsusi olaraq müvafiq aparıcı təşkilata məxsusdur. Bu qiymətləndirmələr Azərbaycan Respublikasının hələ də dinamik, sürətli inkişaf yolunda olduğunu açıq şəkildə göstərir. O, yaxın və müqayisə edilə bilən ərazi və demoqrafik ölçülərə malik olan xalqlar arasında beynəlxalq təşkilatlarda, regional birliklərdə və İslam dünyasında mötədil yer tutur. Mövcud inkişaf strategiyası ilə Azərbaycan yaxın gələcəkdə ən güclü 40-50 ölkə arasında qərar tuta biləcək. Ortamüddətli perspektivdə isə onun məcmusunun müvafiq reytinqlə 40-35 arasında qiymətləndirilməsi yalnız 20-30 il çəkəcək.

*Şəkil 1.*

***Dünya ölkələrin kreativ iqtisadiyyat göstəriciləri***




**Mənbə:** ÜƏMT, Azərbaycan Respublikası Müəllif Hüquqları Agentliyi, altından xətt çəkilən ölkələr Dünya Valyuta Fonduna əsasən inkişaf etmiş ölkələrdir.

ÜƏMT tərəfindən araşdırılan 30 ölkə arasında Azərbaycanın yaradıcı iqtisadiyyat indeksi (ÜDM-in 5%-i) orta səviyyədədir (5,4%) və ümumiyyətlə, bir sıra sənayeləşmiş ölkələrdən heç də geri qalmır.

**4. İnsan İnkişafı İndeksi (İİİ)**

Müasir insan inkişafı nəzəriyyələrinin formalaşdırılmasında ən təsirli iki şəxs Mahbub ul Haq və Amartya Sen olmuşdur. "İnsan inkişafı haqqında düşüncələr" əsərini yazan və bu mövzuda geniş araşdırmalar aparan pakistanlı iqtisadçı-alim Mahbub ul Haq 1990-cı ildə BMT-nin mövzu ilə bağlı ilk hesabatını da vermişdir. Bu ideyanın nəzəri əsasları sonralar iqtisadiyyat elmləri üzrə Nobel mükafatı laureatı Amartya Sen tərəfindən təkmilləşdirilmişdir. O dövrdə modernist konsepsiya kimi qəbul edilsə də, insan inkişafı yanaşması Məhbub ül Haqın başçılıq etdiyi BMT İnkişaf proqramlarının ekspertlərindən ibarət qrup tərəfindən təkmilləşdirilmişdir. Bu qrupun səyləri 1990-cı ildən bəri hər il nəşr olunan Qlobal İnsan İnkişafı Hesabatı ilə nəticələndi [4]. Ölkələrin inkişaf səviyyələrini ölçmək üçün əsas alət dünya miqyasında inkişafı ölçən İnsan İnkişafı İndeksidir (İİİ). Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı bu məlumatlarla bağlı müntəzəm olaraq hesabat dərc edir.

Sağlamlıq, təhsil və həyat səviyyəsi komponentləri insanların həyat keyfiyyətini ölçən İnsan İnkişafı İndeksini yaratmaq üçün birləşdirilir. Birincisi, gözlənilən ömür uzunluğunun ölçülməsi ilə qiymətləndirilən sağlamlıqdır. Məktəbəqədər uşaqların və yaşlı insanların məktəbdə keçirməli olduğu proqnozlaşdırılan illərin sayı qlobal inkişafın əsas mühərriki olan təhsil komponenti yanaşmasına uyğun olaraq onu ölçmək üçün istifadə olunur. Yaşı 25-dən yuxarı olanlar üçün orta təhsil illəri ümumtəhsil illərinin təxmini orta göstəricisi əsasında hesablanır. Məktəb yaşında olan bir gəncin məktəbə getməsini təxmin edə biləcəyi illərin sayı gözlənilən təhsil illəri ilə müəyyən edilir. Həyat səviyyəsinin üçüncü elementi Ümumi Milli Gəlirin miqdarıdır. Hər bir xalq üçün İnsan İnkişafı İndeksi bu üç amilin dəyərləri ilə müəyyən edilir. İnsan İnkişafı İndeksi 0 ilə 1 arasında bir dəyərə malikdir, burada ölkənin ən böyük dəyəri 1 daha yüksək inkişaf səviyyəsini göstərir. İİİ hesablanarkən qeyd olunan amillər nəzərə alındığından, BMTİP bu göstəricini yaratmaq üçün hər il BMT-nin çoxsaylı layihələrindən məlumatlar toplayır.

*Şəkil 1.*

***Azərbaycan Respublikasının illər üzrə İnsan İnkişafı İndeksi (İİİ)***



Yuxarıda qeyd olunmuş şəkildəki hesabat 2022-ci ildə Birləşmiş Millətlər Təşkilatı tərəfindən hazırlanmışdır. Birləşmiş Millətlər Təşkilatının 2022-ci il qiymətləndirməsinə görə, COVİD-19 pandemiyasının təsirləri səhiyyə, təhsil və iqtisadi rifah göstəricilərində onilliklər ərzində əldə edilmiş nailiyyətləri geri çevirdi və hər bir ölkə insan inkişafında əsaslı dəyişikliklər yaşadı. Şəkildən də gördüyümüz kimi, İnsan inkişafı indeksi COVİD-19 pandemiyasından sonra azalmağa başlamışdır. Azərbaycan Respublikası həmin hesabatda 91-ci yerdə qərarlaşmışdır. Hesabata görə, İnsan İnkişafı İndeksi (İİİ) 2019-cu ildə 0.76, 2020-ci ildə 0.73, 2021-ci ildə isə 0.74 olmuşdur.

**Nəticə**

Apardığımız araşdırmalar bizi belə qənaətə gətirdi ki, müasir biliklər iqtisadiyyatının ehtiyaclarını ödəmək üçün innovasiya iqtisadiyyatı insan kapitalının idarə olunmasının yeni üsulları ilə yanaşı, onun idarə olunmasının yeni mexanizmlərinin yaradılmasını zəruri edir.

Apardığımız araşdırmalar göstərir ki, Azərbaycan Respublikasında elmi-tədqiqat və inkişaf xərclərinin və firmaların sayının artması ilə belə özəl sektor bu prosesin həyata keçirilməsində geri qalır. Bu bir sıra amillərlə bağlı ola bilər. Bu səbəbdən elmi-tədqiqat və təcrübə-konstruktor fəaliyyətləri yeni nəticələr tələb etmir, onlara xərclənən pullar təsadüfi xərc hesab olunur, büdcə planlaşdırmasına tədqiqatın maliyyələşdirilməsi daxil deyil, bunun üçün maliyyə vəsaiti minimaldır və s. Bu məsələləri ön plana çıxarmaqla tədqiqat və inkişaf prosesində bəzi təkmilləşdirmələr tövsiyə etmək olar. Regionlar səviyyəsində rəqabətədavamlı innovasiya, tədqiqat və inkişaf strategiyaları yaradılmalı, bu sahəyə yönəlmiş prioritet sahələr və təşəbbüslər müəyyən edilməlidir. Layihələr və planlar gələcək tendensiyalar və beynəlxalq maraqlar nəzərə alınmaqla hazırlanmalıdır. Tədqiqat və inkişaf səyləri bazarın tələblərini nəzərə almalı və dövlət tərəfindən maliyyələşdirilən strateji inkişaf bölmələri özəl müəssisələrdə fəaliyyət göstərməlidir.

Bununla belə, akademik institutların və tədqiqat mərkəzlərinin elmi səylərinin nəticələrinin kommersiyalaşdırılması böyük əhəmiyyət kəsb edir. Biz şübhəsiz ki, gələcəkdə innovativ iqtisadiyyatın qurulmasında uğur qazanacağıq, çünki insan kapitalına qoyulan investisiyaların adətən zamanla öz bəhrəsini verdiyini nəzərə alsaq, bu sahədə düzgün dövlət siyasəti həyata keçirilir. Bu o deməkdir ki, Azərbaycanın beynəlxalq rəqabət qabiliyyəti onun yüksəlməsinə və qlobal reytinqlərdə yerini möhkəmlətməsinə kömək edəcək.

## ƏDƏBİYYAT


1. Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər. Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilmişdir. (https://president.az/az/articles/view/50474).
2. Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli 1138 nömrəli Fərmanı ilə təsdiq edilmişdir. (https://static.president.az/pdf/38542.pdf).
3. Hesabat barədə qısa məlumat. (https://azranking.az/az/ratings/hesabat-barede-qisa-melumat-18).
4. İnsan inkişafı. Dərs vəsaiti. Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı, Bakı, 2014, BMT-nin İnkişaf Proqramı, 54 s.
5. Qlobal İnnovasiya İndeksi 2023-cü il hesabatı. (https://www.wipo.int/global_innovation_index/en/2023/).
6. Qlobal investisiya əsasında təhlil. (https://fins.az/biznes/310544/qlobal-innovasiya-indeksi-esasinda-tehlil/).

7. Rəsulova M., Mikayılov F. İnsan kapitalının səmərəli idarə edilməsinin innovasiyalı iqtisadiyyatda rolu. Beynəlxalq elmi-praktiki konfransın materialları, Bakı, 2017, №3 (8), 2023, s. 115-120.
8. QS World University Rankings 2023: Top global universities (https://www.topuniversities.com/university-rankings/world-university-rankings/2023).
9. Shultz T. Investment in Human Capital. N.Y., London, The American Economic Review, 1971, p. 26-28.

***Резюме***

***Тале Гусейнли***

***Человеческий капитал в развитых экономических системах***

Известно, что направление результатов достигнутого экономического роста на социальное развитие является основной задачей, стоящей перед современной социально-экономической политикой нашей страны. Потому что достижение макроэкономической устойчивости экономической политики и непрерывный рост реального сектора экономики создали объективную основу для решения социальных проблем, возникших на переходном этапе развития общества.

Поскольку люди являются настоящим богатством страны, развитие действительно направлено на удовлетворение их материальных и моральных потребностей. Навыки человека можно повышать путем развития, для него больше альтернатив. Это позволяет людям жить осмысленной и полноценной жизнью. Но люди также рассматриваются как источник процветания развития, двигатель перемен и прогресса. Каждый сектор должен получить равную выгоду от этого процесса, и он должен основываться на участии всех. Этот прогресс в докладе о человеческом развитии – человеческом развитии – поддерживается с 1990 года.

Достижения в экономике страны во многом связаны с наличием инновационного потенциала и условий его реализации. В статье в качестве основного фактора принимается значение экономического взгляда на деятельность человека для развития экономики. С целью определения позиции нашей страны в международном индексе человеческого капитала были проведены детальные анализы, в результате которых отмечено фактическое положение и динамика показателей. Изменения положения нашей страны за отдельные периоды напрямую связаны с факторами, повлиявшими на рейтинговые показатели. Усиление (улучшение) показателей в рейтингах, в целом реализация систематического планирования достижения высоких количественных показателей фактически сохраняет свою актуальность. Параллельно с этим особое значение в выработке позиции нашей страны в отчетах о реализации механизмов решения на страновом уровне имеют исследования, проводимые по слабым сторонам. Фактически реформы, проводимые на территории страны, показывают, что благодаря правильной политике, направленной на управление человеческим капиталом, созданы важные условия для создания и развития развитой экономики в нашей стране.

Человеческий капитал является основной движущей силой производственного процесса, а общественное воспроизводство, если рассматривать его через призму национальной экономики, представляет собой восстановление производства, а также воспроизводство самого этого капитала. Эти элементы уже давно привлекают внимание экономистов-теоретиков.

**Ключевые слова:** *рейтинг, человеческий капитал, инновационное развитие, экономические реформы*

***Summary***

***Tale Huseynli***

***Human Capıtal in Developed Economic Systems***

It is known that directing the results of the achieved economic growth to social development is the main task facing the current socio-economic policy in our country. Because the achievement of macroeconomic stability of the economic policy and the continuous growth of the real sector of the economy created an objective basis for the solution of social issues that arose during the transition stage of the society.

Since people are the real wealth of a country, development really aims to meet their material and moral needs. A person's skills can be increased through development, there are more alternatives for him.

It enables people to live meaningful and fulfilling lives. But individuals are also seen as the source of development prosperity, the engine of change and progress. Every sector should benefit equally from this process and it should be based on the participation of all. This progress in human development report - human development, has been supported since 1990.

Achievement in the country's economy is mainly related to the presence of innovative potential and the conditions for its implementation. In the article, the importance of the economic view of human activity for the development of the economy is taken as the main factor. In order to determine the position of our country in the international human capital index, detailed analyzes were conducted, and as a result of the analyzes, the actual situation and the dynamics of the indicators were noted. The changes in the position of our country for certain periods are directly related to the factors that affected the rating indicators. Strengthening (improving) indicators in ratings, in general, the implementation of systematic planning for the achievement of high quantitative indicators actually maintains its relevance. In parallel with this, the investigations conducted on the weak sides are of particular importance in the development of the position of our country in the reports on the concrete determination of the causes and the implementation of the mechanisms of the country's solution. In fact, the reforms carried out in the territory of the country show that due to the correct policy aimed at the management of human capital, important conditions have been created due to the creation and development of a developed economy in our country.

Human capital is the main driving force of the production process, and social reproduction, as seen through the lens of the national economy, is the restoration of production as well as the reproduction of this capital itself. These elements have attracted the attention of economist-theoreticians for a long time.

**Keywords**: *rating, human capital, innovative development, economic reforms*

Şöbə redaktorunun i.ü.f.d., dos. Ələsgərova Flora Qəməndər qızının rəyi əsasında çapa məsləhət görülmüşdür.